**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

Əlyazması hüququnda

**ÇEŞMİ ŞƏMSƏDDİN QIZI HACIYEVA**

# AZƏRBAYCANIN GEOİQTİSADİ İNKİŞAF MODELİ VƏ ONUN FORMALAŞMASI PROBLEMLƏRİ

**İtisas: 5310.01 – Dünya iqtisadiyyatı**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq İqtisadi Münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Əvəz İslam oğlu Bayramov**

**Rəsmi opponentlər**: iqtisad elmləri doktoru, professor
**Nazim Müzəffər oğlu İmanov**

iqtisad üzrə fəlsəfə doktoru
**Namiq Mürşüd oğlu Hümbətov**

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin "Dünya iqtisadiyyatı" kafedrası

Müdafiə 3 dekabr 2014-cü il saat 14:00 da Azərbaycan Dövlət İqtisad Universitetində iqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilməsi üçün D 02.051 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universitetinin dissertasiya şurası.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 3 noyabr 2014-cü ildə göndərilmişdir.

**D 02.051 Dissertasiya şurasının**
**elmi katibi, i.ü.f.d.** **dosent Z.İ.Mustafayeva**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. 2003 - cü ildən başlayaraq Azərbaycanın sürətli inkişaf trayektoriyasına çıxışı ilə paralel olaraq regional və trans-regional münasibətlər sistemində aparıcı mövqelərə yiyələnməsi cəmiyyət həyatının bütün sahələrində inkişafın dayanıqlılığının təminatı problemini əhəmiyyətli dərəcədə aktuallaşdırmışdır. Eyni zamanda, "Yeni iqtisadiyyatın" formalaşması, insan amilinin, intellektual kapitalın prioritetliyinin qərarlaşması, informasiya-kommunikasiya texnologiyalarının sıçrayışlı inkişafı sözügedən problemin əvvəlki dövrlərdən keyfiyyətcə fərqli situasiyanın formalaşmaşına səbəb olmuşdur.

Qloballaşma prosesi ölkələrarası qarşılıqlı asılılığı daha da gücləndirməklə yanaşı, sərvətin güclü və sürətli axınına yol açan qlobal şəbəkə sistemini formalaşdırmışdır. Qloballaşma prosesi ölkələrarası fərqlilikləri aradan qaldırmır. Əksinə, zəngin ölkələri daha zəngin, kasıb ölkələri isə daha da zəifldərək, qlobal səviyyədə formalaşmış universumun inkişaf etmiş ölkələrin mənafelərinə uyğunlaşdırılmasına şərait yaradır. Bu mənada sosial-iqtisadi inkişafın dayanıqlılığının təminatında xüsusi çətinlik və problem doğuran əsas məsələ məhz, iqtisadi axınların üzərində nəzarətin təşkili məsələsidir. Bütün digər vəzifələr məhz, bu aspektin törəməsi kimi çıxış edir. Belə ki, iqtisadi axınların strukturu, coğrafi yönümlülüyü, dövriyyə sürəti və s. yekun etibarilə ölkənin dayanıqlı inkişafının təminatında həlledici rol oynayır.

Buna görə də, əsas məqsəd milli mənafelərə uyğun şəkildə qloballaşma proseslərinə təsir göstərmək, onun yaratdığı pozitiv imkanlardan yararlanmaq, ölkənin qlobal təkrar istehsal tsiklinə qoşulmasını təmin etmək, milli iqtisadiyyatın transmilliləşməsini sürətləndirmək və ölkənin "ikinci iqtisadiyyatının" formalaşdırılmasına nail olmaqdan ibarətdir.

Bütün bunlar da öz növbəsində, ənənəvi xarici iqtisadi fəaliyyətdən geoiqtisadi yanaşmaya keçidin zəruriliyini və qaçılmazlığını təsdiq edir. Əhatə dairəsinin genişliyini nəzərə alaraq göstərə bilərik ki, bütün bu deyilənlərin fonunda geoiqtisadiyyat həm dünyaya baxış, həm də milli mənafelərə yanaşma tərzində xüsusi mövqe sərgiləyir. O həm gerçəkliyin olduğu kimi dərki, konstruktiv metod, həm də gələcəyə istiqamətlənən strateji baxış və "ölkə-sisteminin" formalaşması üçün inkişaf şərtlərini müəyyənləşdirən konseptual platformadır. Onu da xüsusi qeyd etmək vacibdir ki, geoiqtisadi inkişaf modeli həm nəzəri-metodoloji baxımdan, həm də praktiki cəhətdən fərqli xüsusiyyətlərə, milli məzmuna, amillər və mexanizmlər sisteminə malikdir.

Digər tərəfdən, qlobal proseslərin geniş vüsət aldığı müasir dövrdə, ölkələrarası sərhədlərin şəffaflığının yüksəlməsi, xarici təhdidlərə və çağırışlara qarşı ölkələrin daha həssas olması, eləcə də qlobal iqtisadi məkanda daha layiqli mövqe əldə etmək və dünya gəlirlərində müəyyən paya malik olmaqla iqtisadi tərəqqinin və rifahın yüksəldilməsi geoiqtisadi yanaşmaların və mexanizmlərin yaratdığı üstünlüklərdən maksimum istifadə olunmasını zərurətə çevirir.

**Problemin öyrənilmə səviyyəsi**. Əksər tədqiqatçıların yekdil rəyinə görə geoiqtisadiyyat XX əsrin 80-90-cı illərində formalaşmağa başlamış və XXI əsrin əvvəllərində müstəqil elm sahəsinə çevrilmişdir. Araşdırmalarımız göstərir ki, geoiqtisadi yanaşmanın ilkin ideya qaynağı kimi klassiklərin (A.Smit, D.Rikardo və s.) əsərləri deyil, F.Listin “Böyük məkanların avtarkiyası” konsepsiyası çıxış edir. Geoiqtisadi yanaşmanın milli “yük” daşıması onun nəzəri-konseptual bazasının formalaşdırılmasında da özünü qabarıq şəkildə nümayiş etdirir. Geoiqtisadiyyatın amerikan elmi məktəbi E.Lüttvakdan (müasir geoiqtisadiyyatın banisi) başlayaraq E.Leysonu, V.Nesteri, C.Koeni, S.Xantinqtonu, M.Qoldmanı, F.Fukuyamanı və digər görkəmli tədqiqatçıları özündə birləşdirir.

Fransız məktəbində J.Attali, İtalyan geoiqtisad məktəbində K.Jan və P.Savon, Rus elmi məktəbində A.Neklessa, E.Koçetov və digərləri problemin nəzəri-metodoloji bazasının işlənib-hazırlanması, konkret nəzəri konstruksiyaların formalaşdırılması aspektindən böyük nailiyyətlər əldə etmişlər.

Azərbaycan iqtisad elminin görkəmli nümayəndələri tərəfindən beynəlxalq iqtisadi münasibətlər, dünya iqtisadiyyatı, xarici iqtisadi fəaliyyət, qloballaşma və s. istiqamətlərdə sanballı elmi araşdırmalar aparılmış, ölkənin beynəlxalq əmək bölgüsündə layiqli yer tutması, dünya iqtisadiyyatına effektiv qovuşma rakursundan çox dəyərli elmi müddəalar irəli sürülmüşdür. Bu sırada qeyd edilən elmi istiqamətin aparıcı tədqiqatçılarından A.K.Ələsgərovu, Ə.M.Həsənovu, Ş.H.Hacıyevi, Z.Ə.Səmədzadəni, Ə.İ.Bayramovu, N.İ.Məmmədovu, N.M.İmanovu, R.T.Həsənovu, M.Q.Məmmədovu, H.B.Rüstəmbəyovu, R.M. Qasımovu, İ.A.Kərimlini, E.M.Hacızadəni, M.A.Əhmədovu, M.Y.Quliyevi, F.Ə.Qəmbərovu, N.M.Hümbətovu və digərlərini göstərmək olar.

Bununla belə, qeyd etmək lazımdır ki, aparılan tədqiqatlar birmənalı olaraq ənənəvi xarici iqtisadi fəaliyyət mexanizmləri çərçivəsindən kənara çıxmamışdır. Azərbaycan Dövlət İqtisad Universitetinin “Beynəlxalq iqtisadi münasibətlər” kafedrasının son 3 ildə (2009-2012-ci illər) apardığı elmi araşdırmaları (büdcə təyinatlı elmi-tədqiqat işləri)

nəzərə almasaq, Azərbaycanda geoiqtisadiyyat problematikası sistemli tədqiqatların obyekti olmamışdır. Dissertasiya işinin mövzusunun aktuallığı həm də bu nüansla izah olunur.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin əsas məqsədi müasir gerçəklikdən çıxış etməklə Azərbaycanın geoiqtisadi inkişaf modelinin nəzəri-metodoloji və konseptual əsaslarının işlənib hazırlanmasından, transregional səviyyədə geoiqtisadi məkanın effektiv sərhədlərinin müəyyənləşdirilməsindən və geoiqtisadi yanaşmaya keçid situasiyasının inkişaf ssenarilərinin müəyyən edilməsindən ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı **vəzifələr** müəyyənləşdirilmişdir:

- Geoqtisadi yanaşmanın genezisinin sistemli şəkildə araşdırılması;
- Müxtəlif yönümlü geoiqtisadiyyat məktəblərinin nəzəri-metodoloji və konseptual baxışlarının müasir gerçəklik kontekstində tədqiqi və müqayisəli formada qiymətləndirilməsi;
- Azərbaycanın xarici iqtisadi fəaliyyətinin geoiqtisadi müstəvidə kompleks təhlili;
- Ölkənin geoiqtisadi atlasının tərtibi imkanları və variantlarının qiymətləndirilməsi;
- Ölkənin regional və transregional səviyyədə qarşılıqlı iqtisadi əlaqələrinin ekonometrik model çərçivəsində tədqiqi;
- Geoiqtisadi mövqe seçiminin effektiv sərhədlərinin müəyyənləşdirilməsi imkanlarının araşdırılması;
- Geoiqtisadi yanaşmaya keçidin müxtəlif variantlarının təhlili;
- Geoqtisadi yanaşmaya keçidlə əlaqədar xarici iqtisadi fəaliyyət sisteminin institusional təminatının qiymətləndirilməsi;
- Geoiqtisadi yanaşma ilə sıx bağlılıqda olan fəaliyyət sferalarının təkmilləşdirilməsi istiqamətlərinin araşdırılması;
- Geoiqtisadi inkişaf ssenarilərinin formalaşması prinsiplərinin və prosedur qaydaların müəyyənləşdirilməsi.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.**

Geoiqtisadi yanaşmanın milli məzmun daşıması tədqiqatın metodoloji əsaslarına plüralist mövqedən yanaşmanı, yekun olaraq nəinki metodoloji, həmçinin nəzəri konsepsiyaya eklektik rakursdan baxmaq zərurətini yaradır. Bu anlamda metodoloji konsepsiya postpozitivizm və poststrukturalizmdən qaynaqlanmaqla milli özgürlüyün qorunub saxlanması prinsiplərinə istinad edir.

**Dissertasiyanın nəzəri bazası** müxtəlif geoiqtisadi məktəblərin elmi baxışlarının konseptual ümumiləşdirilməsinə istinadla formalaşmışdır. Eyni zamanda, tədqiqat prosesində xarici iqtisadi fəaliyyətlə

bağlı qəbul edilmiş normativ-hüquqi aktlardan, ölkə Prezidentinin və Nazirlər Kabinetinin fərman və sərəncamlarından geniş istifadə edilmişdir.

**Tədqiqatın metodiki aparatı** problemin mahiyyətindən çıxış etməklə formalaşdırılmışdır. Bu sırada sistemli-struktur, sistemli-funksional və sistemli-genetik, tarixi məntiqi, iqtisadi-siyasi, riyazi-statistik, müqayisə analogiya, statistik qruplaşdırma və s. metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazasını** Dövlət Statistika və Gömrük Komitələrinin, İqtisadi İnkişaf və Maliyyə Nazirliklərinin, Beynəlxalq İqtisadi Təşkilatların hesabat məlumatları internet saytlarının informasiyaları təşkil edir.

**Tədqiqatın obyektini** Azərbaycanın xarici iqtisadi fəaliyyət sisteminin geoiqtisadi müstəvidə təzahür formaları təşkil edir.

**Tədqiqatın predmetini** isə Azərbaycanın ənənəvi xarici iqtisadi fəaliyyətdən geoiqtisadi yanaşmaya keçidi və onunla bağlı olan problemlər kompleksi təşkil edir.

**Tədqiqatın elmi yeniliyi**. Əsas elmi yenilik problemin respublikada ilk dəfə olaraq sistemli şəkildə araşdırılmaqla, ölkənin geoiqtisadi inkişaf modelinin konseptual əsaslarının işlənib hazırlanmasından ibarətdir.

Tədqiqat prosesində əldə edilən konkret elmi yeniliklər kimi aşağıdakıları göstərmək olar:

- Problemlə bağlı mövcud nəzəri baxışların konseptual ümumiləşdirilməsi və aşkarlanan metodoloji fərqliliklərin ziddiyyətli mahiyyətinə istinadla geoiqtisadi yanaşmanın milli məzmun daşıması elmi cəhətdən əsaslandırılmışdır;
- İlk dəfə olaraq Azərbaycanın geoiqtisadi atlası qurulmuş və onun əsas parametrlərinin sistemli interpretasiyası verilmişdir;
- Ekonometrik təhlil əsasında ölkənin qarşılıqlı iqtisadi əlaqələrinin keyfiyyət aspektlərini ehtiva edən interpretativ model qurulmuşdur;
- Ölkənin geoiqtisadi məkanının lokallaşmasinin effektiv sərhədləri müəyyənləşdirilmişdir;
- Geoiqtisadi yanaşmaya keçid situasiyasının konseptual-nəzəri konstruksiyası işlənib hazırlanmışdır;
- Effektiv geoiqtisadi fəaliyyətin tətbiqi ilə bağlı institusional təminat problemlərinin həlli yolları göstərilmişdir;
- Ölkənin geoiqtisadi inkişaf modelinin nəzəri-metodoloji və konseptual məzmunu açıqlanmış, onun proqmatik müstəviyə keçidinin reallaşma mexanizmi empirik cəhətdən qiymətləndirilmişdir;

- Ölkənin geoiqtisadi inkişaf ssenariləri işlənib hazırlanmış, ümummilli mənafelərin təminatı sferasında keyfiyyətcə yeniləşmənin əsas istiqamətləri göstərilmiş, müvafiq tövsiyələr irəli sürülmüşdür.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Ölkədə ilk dəfə olaraq geoiqtisadi problematika ilə bağlı aparılan elmi-tədqiqat işinin nəticələrinə istinadla irəli sürülən təklif və tövsiyələr, qeyd edilən sferada iqtisad elminin nəzəri-konseptual əsaslarının zənginləşdirilməsində əhəmiyyəti rola malikdir. Ümumiyyətlə, milli xüsusiyyətlərə adekvat şəkildə formalaşdırılan elmi baxışlar sistemi kifayət qədər yüksək nəzəri-metodoloji önəm daşıyır.

Dissertasiya işinin nəticələrinin praqmatik müstəvidə tətbiqi ənənəvi xarici iqtisadi fəaliyyətdən geoiqtisadi yanaşmaya keçidin təminatında, eləcə də keçid dövrünün zamanca sürətlənməsi, onun effektivlik dərəcəsinin yüksəlməsi və yekun olaraq geoiqtisadi məkanın lokal sərhədlərinin müəyyən edilməsində mühüm praktiki rol oynaya bilər. Eyni zamanda tədqiqat işinin nəticələrinindən ali təhsil müəssisələrində "Dünya iqtisadiyyatı", "Geoiqtisadiyyat", "Beynəlxalq iqtisadi münasibətlər" və digər fənlərin tədrisində istifadə oluna bilər.

**Aprobasiya və tədqiqatın nəticələrinin tətbiqi.**

Dissertasiya işinin əsas nəticələri və irəli sürülmüş təklifl və tövsiyələr beynəlxalq və ümumrespublika əhəmiyyətli elmi-nəzəri və praktiki konfranslarda müzakirə olunmuşdur. Eləcə də tədqiqatın əsas nəticələri Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu tərəfindən praktiki istifadə üçün qəbul olunmuşdur.

Dissertasiya işinin məzmununu əks etdirən umumi həcmi 8,7 ç.v olan 12 məqalə və tezis (o cümlədən 4-ü xaricdə) dərc olunmuşdur.

**İşin həcmi və strukturu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla 169 səhifə həcmindədir. Dissertasiya işində 8 cədvəl, 59 şəkil, 3 xəritə verilmişdir. İstifadə edilmiş ədəbiyyat siyahısında Azərbaycan, rus, ingilis dillərində olan 212 ədəbiyyat mənbəyi və internet səhifəsi göstərilmişdir.

Tədqiqatın strukturu aşağıdakı kimidir:

**GİRİŞ**

**I FƏSİL. MİLLİ İQTİSADİ İNKİŞAFIN GEOİQTİSADİ ƏSASLARI**

1.1. Geoiqtisadiyyatın tarixi təkamül prosesinə müasir baxış.

1.2. Ümummilli inkişafın geoiqtisadi vektoru: nəzəri yanaşmaların müqayisəli təhlili.

**II FƏSİL. AZƏRBAYCANIN XARİCİ İQTİSADİ FƏALİYYƏTİNİN GEOİQTİSADİ ASPEKTLƏRİNİN TƏDQİQİ**
2.1. Ölkənin geoiqtisadi atlası: mövcud vəziyyətin təhlili və sistemli interpretasiyası.
2.2. Geoiqtisadi fəaliyyətin ekonometrik təhlili.
2.3. Azərbaycanın geoiqtisadi fəaliyyət sferasının kommunikativ sərhədləri.
**III FƏSİL. ÖLKƏNİN GEOİQTİSADİ İNKİŞAF MODELİNİN FORMALAŞMASININ KONSEPTUAL ƏSASLARI**
3.1. Geoiqtisadi inkişaf trayektoriyasına keçidin nəzəri-metodoloji əsasları.
3.2. Geoiqtisadi fəaliyyətin institusional təminatının əsas istiqamətləri.
3.3. Ölkənin geoiqtisadi inkişaf ssenariləri.
**NƏTİCƏ**
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**
**ƏLAVƏLƏR**

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

### 1. Geoiqtisadi yanaşmanın konseptual məzmunu: müqayisəli qiymətləndirmə

Şübhə yoxdur ki, geoiqtisadiyyatın nəzəri əsasları və konseptual məzmununun formalaşmasında siyasi iqtisadın və onun metodoloji arsenalından istifadənin böyük rolu olmuşdur. Əgər, nəzərə alsaq ki, geoiqtisadiyyat – siyasət və iqtisadiyyatın coğrafi (konkret) müstəvidə konkret zaman və məkan çərçivəsində çulğalaşmasından, hər iki fəaliyyət sferasının müəyyən tarixi inkişaf dövründə struktur bütövlüyünün təkamülündən qaynaqlanmaqla meydana çıxmışdır, onda siyasi iqtisad nöqteyi-nəzərindən yanaşmanın, təbiidir ki, heç bir alternativinin olmadığı təsdiq oluna bilər.

Amma iddia etmək ki, geoiqtisadi yanaşmanın ilkin mənbəyi A.Smit və D.Rikardonun elmi baxışlarıdır, fikirimizcə o qədər də uğurlu deyildir. Belə ki, A.Smit, eləcə də digər klassiklər formalaşmaqda olan modern dövrünün reallıqlarından çıxış etməklə və bazar mexanizminin fəaliyyət xüsusiyyətlərini klassik mənada incələməklə milli dövlətin sərvət toplama yollarını müəyyənləşdirərkən məhz, milli dövlət anlayışının mütləq mənada qəbuluna istinad etmişlər. Eləcə də klassiklər, xarici ticarətdə səmərəliliyi yüksəltmək istiqamətində sistemli araşdırmalar aparmaqla, iqtisadi hadisə və proseslərin elmi cəhətdən əsaslandırılması nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edən

konsepsiyalar ortalığa qoymuşlar. Bununla belə, azad ticarət siyasətinin dəstəklənməsi heç də müasir anlamda geoiqtisadi yanaşmanın mahiyyətini bütövlükdə əks etdirmir.

Klassiklər zaman və məkan reallığına ümumiyyətlə fikir verməmiş, sonralar K.Marksın ifadə etdiyi kimi, "bütün ticarət edənləri" eyni statusda qəbul etmişlər. Ən mühüm olan məsələ isə klassiklərdə iqtisadi proseslərə etik yanaşmanın üstünlük təşkil etməsi olmuşdur. Dövləti iqtisadiyyatdan təcrid etməklə, azad ticarət siyasətini dəstəkləməklə siyasət-iqtisadiyyat cütlüyünə elə bir əhəmiyyət verməmişlər. Məhz bu boşluğu dolduran və tamamilə haqlı olaraq geoiqtisadi yanaşmanın banisi hesab edilən F.List öz dövrünü əsaslı surətdə qabaqlayan konseptual baxışlar formalaşdırmışdır.

Dünya-sistem yanaşmasının nisbətən fərqli təzahür forması olan "Böyük məkanların avtarkiyası" konsepsiyası ilə geoiqtisadi yanaşmanın bünövrəsini formalaşdıran F.List klassıik geosiyasətin (ərazi genişləndirilməsi) əksinə olaraq məkanla bağlılığın məhz, milli aspektlərini ön plana çıxarmışdır.

Ümumiyyətlə, F.Listin paternalist yanaşmasından həm Almaniyanın birləşdirilməsində (gömrük ittifaqı), həm Qərbi Avropada gedən inteqrasiya proseslərində ("Boyük məkanların avtarkiyası"), həm də II Dünya müharibəsindən sonra "alman möcüzəsi" modelinin yaradılmasında geniş sürətdə istifadə olunmuşdur.

İlkin baxışdan məzmun cəhətdən elə bir mübahisə doğurmasada, geoiqtisadityyatın milli dövlətlərlə, milli mənafelərlə birbaşa bağlılığı onun yeri, rolu və konkret fəaliyyət xüsusiyyətləri haqqında elmi fikirlərin müxtəlifliyi getdikcə artmaqdadır. Problemə sistemli yanaşdıqda ayrı-ayrı milli məktəblərin fərqli mövqe sərgilədikləri aydın olur.

Amerikan milli məktəbinin lideri E.Lüttvak bir elm kimi müasir geoiqtisadiyyatın banisi hesab oluna bilər. Onun əsəs tədqiqat sferası inkişaf etmiş ölkələri əhatə edir. O, iqtisadi və siyasi məqsədlərə nail olma vasitəsi kimi hərbi gücdən deyil, geoiqtisadi yanaşmadan istifadə olunmasının əsas tərəfdarı kimi çıxış edirdi.

Bu məktəbin digər görkəmli nümayəndələri E.Leyfo və V.Nesterin konseptual araşdırmalarında 3 əsas element ön sıraya çıxarılır:

- Neoliberal dəyərlərin doğurduğu yeni situasiyada dövlətin yeri və rolunun yeni anlamda dərk edilməsi;
- Beynəlxalq münasibətlər sisteminin özünəməxsus "ümumibazarının" yaranması;
- Milli iqtisadi məkanda fərqli məzmun daşıyan "iqdisadi aləmlər" çoxluğunun mövcud olması.

Geoiqtisadi problematikanın fransız tədqiqatçıları sırasında J.Attali xüsusi yer tutur. J.Attali geoiqtisadiyyat problematikasını ultra-qlobalizm mövqeyindən şərh verməyə çalışır və bu yanaşmanın məntiqindən aydın olur ki, guya milli dövlətlər mövcüd deyil, artıq dünya höküməti formalaşmışdır. Ümumi şəkildə qeyd etmək vacibdir ki, J.Attalinin geoiqtisadiyyat konsepsiyası Atlantizm (qərbmərkəzçliyi) və mondializm (qlobal səviyyə) arasında orta mövqedədir.

Geoiqtisadiyyatın italyan məktəbi əsasən K.Jan və P.Savonun tədqiqatları bazasında formalaşmışdır. Bu məktəbin əsas fərqli xüsusiyyətlərindən biri geoiqtisadi rəqabəti yalnız dövlətlərə, dövlətlərarası münasibətlərə şamil etməsidr.

XXI əsrin başlanğıcından etibarən Rusiyada geoiqtisadi yanaşmanın iki modeli (əsasən, tədqiqat-nəzəri xarakterli) dövriyyədədir:

– A.Neklessanın qlobal geoiqtisadi universumun heksaqonal (altı tərəfli) modeli;

– E.Koçetovun dövlətin rəqabət qabiliyyətliyinin yüksəldilməsinin siyasi və strateji əsaslarını özündə birləşdirən geoiqtisadi inkişaf modeli.

A.Neklessanın heksaqonal adlandırılan və mahiyyətcə keçid xarakteri daşıyan modeli, təsir gücünə görə hegemon mövqe tutan 2 yaranışa istinad edir: superdövlətlər (regional) və inteqrasiya qruplaşmaları. Bu modelə görə dünyanın geoiqtisadi arxitekturası 4 makroregion və 2 transmilli metaregiondan ibarətdir. Dünyanın geoiqtisadi arxitekturasını əks etdirən heksaqonal model, araşdırmalarımızın da göstərdiyi kimi əsasən konseptual təsvir xarakteri daşıyır.

E.Koçetov geoiqtisadiyyatı, geoiqtisadi yanaşmanı dünya gəlirində pay əldə edilməsi prosesi ilə bağlayır. Onun interpretasiyasında dünya gəliri beynəlmilləşmiş təkrar istehsal tsikllərində istehsal olunmuş əmtəə və xidmətlərin satışından əldə edilən gəlirdir.

Beləliklə, geoiqtisadiyyata yanaşmanın ayrı-ayrı milli məktəblər tərəfindən müxtəlif amillərlə interpretasiyası, çıxış nöqtələrinin metodoloji anlamda aşağıdakı kimi qruplaşdırılmasına imkan verir:

– geoiqtisadiyyat – geosiyasətin tərkib elementlərindən biridir;

– geoiqtisadiyyat – dünya çapında milli rəqabət qabiliyyətliliyin artırılmasına yönəlmiş iqtisadi geosiyasətdir;

– geoiqtisadiyyat – geosiyasəti, geoekologiyanı və geokulturologiyanı özündə ehtiva edən yeni sistemli yanaşmadır;

– geoiqtisadiyyat - qloballaşmanın doğurduğu yeni yaranışdır və s.

Problemə nəzəri baxışlarda geoiqtisadiyyat nəyi ehtiva edir sualı ətrafında konseptual fikirləri aşağıdakı kimi ümumiləşdirmək olar:

– İlkin çıxış nöqtəsinin coğrafi imperativlərlə bağlı olması;

– Ölkələrin rəqabət qabiliyyətliliyinin yüksəldilməsi strategiyası və siyasətinin qlobal kontekstdə formalaşması;

– Klassik geosiyasət metodlarının "iqtisadiləşməsi" nəticəsində beynəlxalq "oyun qaydalarının" iqtisadi müstəviyə keçidi ilə əlaqədar yeni münaqişə tipinin (geoiqtisadi) yaranması;

– Formalaşmaqda olan qlobal universumda müxtəlif fəaliyyət istiqamətlərinin coğrafi və transcoğrafi (məkanca) lokallaşması, BƏB-in yeni tipologiyasının təşəkkülü;

– Qlobal səviyyəli tənzimlənmənin əsası və qlobal səviyyəli strateji bağlılıq sisteminin əsasi kimi siyasət və iqtisadiyyatın üzvi birliyinə söykənən beynəlxalq münasibətlər sisteminin təşəkkülü.

Beləliklə, geoiqtisadiyyatın müasir anlamının genezisi göstərir ki, o yarandığı andan etibarən geosiyasətin varisi kimi çıxış edir.

**2. Ölkənin geoiqtisadi atlasının tərtibi xüsusiyyətləri.**

Geoiqtisadi məkanda baş verən hadisə və proseslərin kompleks təhlili və interpretasiyasını həyata keçirmək baxımından geoiqtisadi atlas xüsusi rol oynaya bilər. Bu mənada milli geoiqtisadi atlas milli strateji məqsədləri, geoiqtisadi təsir zonalarını, əməliyyat şəraitini və s. geoiqtisadi fəaliyyətin məcmu şəkildə qiymətləndirilməsi üçün zəruri - analitik informasiya mənbəidir.

Eyni zamanda, geoiqtisadi atlasın ayrı-ayrı ölkələr bölümündə hazırlanması (tərtibi) vahid resept əsasında həyata keçirilmir və keçirilməsi də prinsipcə mümkün deyildir. Belə ki, geoiqtisadi fəaliyyətlə bağlı milli strateji hədəflər bir-birindən ən azı metodoloji yanaşmanın struktur prinsipləri nöqteyi-nəzərindən əsaslı surətdə fərqlənir.

Bununla belə, milli geoiqtisadi atlasın yaradılması mexanizminə yanaşmada da vahid mövqe yoxdur. Çoxlu sayda variant müxtəlifliyi mövcuddur ki, bu aspektdən də iki yanaşma nəzər-diqqəti cəlb edir:

1) Geoiqtisadi məkanın ayrı-ayrı sferalarının özlüyündə mövcud olan xəritələrinin tətbiqi; Bu yanaşmanın müəllifi olan V.Kutinin fikrincə həmin xəritələr geoiqtisadi məkanda obyektin dəqiq təsvirini verməyə qadirdir və məzmun etibarilə universal (çoxfunksiyalı) təhlil vasitəsi kimi çıxış edir.

2) "Alternativ qərarların sintezi" layihəsi – problematik situasiyalarda tam formatlı qərarların qəbulunu asanlaşdırır və formalaşan situasiyanı (qlobal səviyyədə) sistemli-abstrakt şəkildə nəzərdən keçirməyə imkan verir.

Geoiqtisadi atlas ideyasının müəlliflərindən biri sayılan E.Koçetov isə əsasən qlobal səviyyə ilə bağlı hazırlanma texnologiyalarından

bəhs edir və bu anlamda iki istiqaməti əsas götürür: qlobal məkanın ətraflı interpretasiyası və qlobal məkanın iqtisadi "səhifələrə" bölünməsi.




**Şəkil 1. Milli geoiqtisadi atlasın məntiqi strukturu və məzmunu**

Geoiqtisadi atlasla bağlı aparılan tədqiqatların nəticələri göstərir ki, onun tərtibi prosesi mürəkkəb konfiqurasiyalı münasibətlərin ən kiçik detallarını, mövcud situasiya və perspektiv gözləntilərin nəzəri-konseptual və praktiki nöqteyi-nəzərdən qiymətləndirilməsini həyata

keçirir və onun ideologiyası, başlıca məqsədləri milli strateji maraqlara xidmətdən ibarətdir. Eyni zamanda, aydındır ki, bütün ölkələr üçün keçərli olan vahid yanaşmanın yoxluğu milli strateji maraqlar və milli spesifikanın əsas çıxış nöqtəsi kimi götürülməsini şərtləndirir. Apardığımız tədqiqatın nəticələrinin konseptual ümumiləşdirilməsi əsasında Azərbaycanın geoiqtisadi atlasının əsas məzmununu aşağıdakı məntiqi sxem formasında verilməsini məqsədəuyğun hesab edirik (şəkil 1.).

Şəkildəki təsvirdən göründüyü kimi, milli geoiqtisadi atlasın ideoloji və nəzəri-metodoloji əsaslarının formalaşdırılması, müasir reallıqlar baxımından qaçılmaz zərurətdir. Bu aspektdən geoiqtisadi atlas sözün geniş mənasında Azərbaycanın milli ideyasının həyata keçirilmə modeli səciyyəsi daşıyır. Eyni zamanda, milli atlas Azərbaycanın bugünə qədər geoiqtisadi yanaşma məntiqi müstəvəsində əldə etdiyi səviyyəni özündə ehtiva edir. Digər bir xüsusiyyət, milli atlasın, bir sıra istiqamətlərdə qlobal geoiqtisadi atlasla bağlı formada tərtibidir. Başqa sözlə, dünyanın geoiqtisadi atlasının bəzi "səhifələri" milli aspektdən şərh edilir.

Milli geoiqtisadi atlas çərçivəsində apardığımız tədqiqatın ilkin yekunları göstərir ki, ənənəviçilik, bir sıra istiqamətlərdə bəzi göstəricilərin, eləcə də funksional bağlılıqların uçotunun aparılmaması milli geoiqtisadi atlasın "səhifələrinin" informasiya ilə təminatında boşluqlar yaradır.

**3. Geoiqtisadi fəaliyyət sferasının məkan lokallaşması və kommunikativ sərhədləri.**

Transregional səviyyədə baş verən dəyişiklik (böhranla bağlı) Azərbaycanın geoiqtisadi üstünlüklərinin daha da güclənməsinə, geosiyasi fəaliyyətin intensivləşməsinə və bir sıra istiqamətlərdə sırf iqtisadi fayda ilə yanaşı siyasi dividentlər əldə etməsinə gətirib çıxartmışdır.

Müsbət meyillərin meydana çıxmasında əsas rol oynayan amil qeyri-neft sektorunun inkişaf problemlərinin həlli istiqamətində intensiv fəaliyyətin başlanması, informasiya-kommunikasiya və yüksək texnologiyalardan istifadə imkanlarının genişləndirilməsi və innovasiyaların diqqət mərkəzinə gətirilməsindən ibarətdir.

Araşdırmalarımız göstərir ki, daxili istehsala münasibətdə ixracatın üstün artıma meyillərinin dayanıqlılığına baxmayaraq, ayrı-ayrı sahələrə münasibətdə problemlər hələ də qalmaqdadır. Belə ki, kənd təsərrüfatı və yeyinti sənayesi məhsullarının cəmi 8%-i, yüngül sənaye məmulatlarının 25%, metallurgiya sənayesinin 23%, digər sənaye sahələrinin isə 6%-i ixrac olunur. Bu sırada üstün mövqe mineral məh-

sullara (70%), kimya sənayesi məhsullarına (65%) və maşınqayırma sənayesinə (62%) aiddir.

Geoiqtisadi sistemlilik nöqteyi-nəzərdən təsvir etdiyimiz situasiya xarici iqtisadi fəaliyyətin "anklav" xarakteri daşıdığından xəbər verir. Eyni zamanda söhbət geoiqtisadi təkrar istehsal tsikllərinə "anklav" xarakterli qoşulmadan yox, ölkənin iştirakı olmadan ona məxsus olan resursların sözügedən silsilələrdə istifadəsindən gedir. Başqa sözlə, qeyd etdiyimiz "anklavlıq" öz-özlüyündə mənfi işarəli yük daşımır. Amma, onun istifadəsi prosesində (geoiqtisadi məkanda) ölkə iştirak etmirsə, onda istənilən halda dünya gəlirinin ona çatacaq hissəsindən məhrum olur.




**Şəkil 2. Xarici ticarət göstəricilərin proqnoz nəticələri**

İxracatla müqayisədə, idxalın artımı trendində elə bir əhəmiyyətli dəyişiklik baş verməmişdir. Bunu ekstrapolyasiya metodunun tətbiqi ilə apardığımız proqnoz hesablamalarının nəticələrindən aydın görmək olur.

Ölkənin xarici iqtisadi siyasətində elə bir dəyişiklik baş verməmiş təqdirdə 2025-ci ilə qədər geosiqtisadi-ticari situasiya belə olacaqdır: ölkənin xarici ticarət dövriyyəsi 87%-lik sabitlik (approksimasiya) əmsalı, yəni ixracatın əmtəə strukturunun sabitliyi şəraitində ortaillik

olaraq 2 mlrd. dollar həcmində artacaqdır. Eyni ilə ixracatda sabitlik əmsalının 83% təşkil etdiyi müddətdə 1,5 mlrd. dollara qədər, idxalatda isə (sabitlik əmsalı- 93%) 1 mlrd. dollara yaxın ortaillik artım gözlənilir. Başqa sözlə, ixracatın əmtəə strukturu ilə idxalatın strukturu arasında üzvi bağlılıq proporsional dəyişiklik şəraitində mümkündür. Yəni, ixracatın monostrukturlaşması probliemini köklü surətdə həll etmədən, idxalatın əmtəə strukturunu uzunmüddətli dövr ərzində təkmilləşdirmək kifayət qədər mürəkkəb bir probelm olaraq qalacaqdır.

1995-2025-ci illər üzrə apardığımız proqnozlar, əsasən müxtəlif istiqamətli reqressiya tənliklərinə istinadla həyata keçirilmişdir. Xarici ticarət əsas göstərici kimi götürüldükdə reqressiya tənliyi aşağıdakı formanı alır:

$$\mathbf{Y = -24{,}69 + 3{,}72}x_1 \quad (1)$$

$$\mathbf{Y = 13{,}86 + 0{,}24}x_1 \quad (2)$$

Araşdırmalarımız göstərir ki, ən yüksək korrelyasiya bağlılığının mövcudluğu şəraitində belə, birbaşa xarici investisiyaların azalma təmayülü xarici ticarətin yüksək dinamikasına elə bir təsir göstərməyəcəkdir. Buradan belə bir qənaətə gəlmək olar ki, geoiqtisadi anlamda bu göstəricilərin adekvat dəyişməsi xarici investisiya siyasətinin effektivlik dərəcəsinə də ciddi təsir etməyəcəkdir. Bu, o deməkdir ki, ölkənin ixrac etdiyi məkanlara investisiya qoyuluşu ya ümumiyyətlə həyata keçirilmir ya da, zəruri səviyyədə və strukturda deyildir.

İkinci reqressiya tənliyindən göründüyü kimi, xarici ticarətin müsbət təmayüllü dinamikası investisiya qoyuluşlarının həcmini və istiqamətini dəyişməyə imkan yaradır.

Dissertasiya işində Azərbaycanın xarici ölkələr üçün geoiqtisadi cəlbediciliyini qiymətləndirmək məqsədilə, onun daha çox iqtisadi əlaqələrə malik olduğu ölkələrlə xarici ticarət əlaqələrinin təhlilinə xüsusi yer verilmişdir. Ümumiyyətlə, nəinki ABŞ, eləcə də Aİ, Rusiya və İranın Azərbaycanda güddükləri geoiqtisadi maraqlar həm açıq, həm də gizli formada klassik geosiyasətin rıçaqları vasitəsilə həyata keçirilir. Eyni zamanda, sadalanan tərəflər bu məsələdə müxtəlif yollardan və müxtəlif vasitələrdən istifadə edirlər.

Bir qayda olaraq, geostrateji hədəflərin iqtisadi interpretasiyası konkret kommunikativ sərhədlərə malik olan məkan müəyyənliyi üzərində qurulur. Bu anlam yalnız coğrafi mövqeyi deyil, eləcə də iqtisadi, siyasi, sosial, mənəvi, sivil və s. nöqteyi-nəzərindən qərarlaşmış yanaşma tərzini də özündə ehtiva edir. Azərbaycan milli ideyasının gerçəkləşməsi prosesi məhz, sadalananların "davranış tərzi" ilə xarici mühitin tolerant-

lıq dərəcəsi arasında formalaşan münasibətlər sistemindən qaynaqlanır. Buna görə də, geoiqtisadi fəaliyyətin effektivlik səviyyəsi məkan müəyyənliyinin sərhəd energetikasından "qidalanmaqla" reallaşa bilir.

Apardığımız tədqiqat göstərir ki, Azərbaycanın geoiqtisadi inkişafının davamlılığını təmin edəcək məkanlar o qədər də çoxsaylı deyildir. Mövcüd reallıqdan çıxış etməklə deyilən anlamda 3 geoiqtisadi məkanı ayırmaq olar: Cənubi Qafqaz, Xəzər hövzəsi və Qara dəniz hövzəsi.

İlk öncə qeyd etmək vacibdir ki, sadalanan məkanlar arasında kommunikativ sərhədlilik kifayət qədər "şəffafdır". Bu mənada, məkanların beynəlxalq əhəmiyyətliyi nöqteyi-nəzərindən hər üç bölgəni Böyük Qara Dəniz hövzəsi kimi səciyyələndirmək də mümkündür. Digər tərəfdən, sözügedən geoiqtisadi məkan bütövlükdə Avrasiya məkanının ən mürəkkəb, ən fəal hissəsi olmaqla, sürətlə dəyişən geomühitin spesfik xüsusiyyətlərinə görə daha böyük geoiqtisadi (həm də geosiyasi) cəlbediciliyə malikdir. Məkanın həm coğrafi mövqeyi, həm də kommunikativ imkanlarının yaratdığı üstünlüklər yekun etibarilə daha fəal şəkildə geoiqtisadi yanaşmanı tətbiq edən ölkəni bütövlükdə Avrasiya geoiqtisadi məkanında "söz sahibinə" çevirə bilər.

Qərbin (ABŞ və Avropa İttifaqı) Azərbaycan da daxil olmaqla Cənubi Qafqaz $\rightarrow$ Xəzər hövzəsi regionunun "tranzit-ötrücü" modellə geoiqtisadi arxitekturaya qatılması istiqamətində cəhdləri qibtəediləcək ardıcıllıqla həyata keçirilməkdədir.

Eyni zamanda, qeyd etmək vacibdır ki, tranzit funksiyası öz-özlüyündə mənfi çalarlar daşımır. Tranzit ölkə olmaq beynəlxalq iqtisadi münasibətlər sistemində strateji əhəmiyyət kəsb etmək deməkdir, yalnız o halda ki:

1) Ölkə (məkan) tranzit funksiyasına münasibətdə obyekt deyil, subyekt kimi, yəni axınların təşkili, tənzimlənməsi və istiqamətlərinin müəyyənləşdirilməsində "söz sahibi" olan struktur kimi çıxış etməlidir. Bu baxımdan, axınlar üzərində siyasi nəzarət tranzit ölkənin əlində cəmləşməlidir;

2) Tranzit resursların ölkədaxilində istifadəsi imkanlarına malik olmalıdır;

3) Nəqliyyat-kommunikasiya layihələrində dövlətin və milli kapitalın investor kimi iştirakı zəruridir;

4) Milli resursların da tranzit funksiyası çərçivəsində ixracatını aparmaq, eləcə də tranzit axınların regional və beynəlxalq bazarlarda qiymətqoyma prosesinə təsiretmə gücündə olmalıdır və s.

**4. Azərbaycanın geoiqtisadi yanaşmaya keçidinın nəzəri-metodoloji əsasları və institusional təminatı problemləri.**

Yeniləşən dünyada "bugün"lə işləyən, üstünlüyü "indi" əldə etməyə yönələn və gələcək nəsillərin hesabına rifahı yüksəltməyə çalışan siyasət artıq qəbul edilməzdir.

Dünyanın iqtisadi inkişaf səviyyəsi və tətbiq edilən inkişaf paradiqmaları, müxtəlif sivilizasiya modelləri ilə kəskin surətdə fərqlənən geoiqtisadi məkanların mövcudluğu, Azərbaycanın geostrategiyasının müəyyənləşdirilməsində seçim imkanlarının çoxluğuna dəlalət etmir. Müxtəlifliyin geniş spektri, bir tərəfdən geostrateji anlamda manevretmə imkanlarının sərhədlərini "qloballaşdırırsa", digər tərəfdən ölkənin milli strateji maraqlarının təminatında balanslı və tarazlı yanaşmanın alternativsizliyini qarşıya qoyur.

Tədqiqatın nəticələrindən göründüyü kimi, ənənəvi xarici iqtisadi fəaliyyətlə geoiqtisadiyyat arasındakı əsas fərqləri (şəkil 3) keyfiyyət baxımından 4 qrupda birləşdirmək olar:

1. Ənənəvi xarici iqtisadi fəaliyyət, əsasən konyunktur, geoiqti-sadiyyat isə strateji məna daşıyır;
2. Xarici iqtisadi fəaliyyətdə ənənəvi alqı-satqı prosesi dünya bazarının konyunktur dəyişiklikləri bazasında həyata keçirilir. Geoiqtisadiyyat isə struktur yaratma bazasında əməkdaşlıq münasibətlərini formalaşdırır;
3. Geoiqtisadiyyat bütövlükdə iqtisadi məkanda əməliyyat aparmaq və ona milli maraqlar çərçivəsində əks-təsir göstərmək, əlverişli iqtisadi situasiyalar formalaşdırmaq imkanı yaradır. Ənənəvi xarici iqtisadi fəaliyyət isə bazarın çərçivəsindən kənara çıxmır və bazarda formalaşmış "oyun qayda"ları çərçivəsində həyata keçirilir;
4. Geoiqtisadi inkişaf paradiqmasında mərkəzi məsələ – ölkənin milli təhlükəsizlik konsepsiyasının formalaşdırılmasından ibarətdir ki, bu da keyfiyyətcə yeni məzmun kəsb edir. O mənada ki, təhlükəsizlik kateqoriyasının məzmunu fərqli prinsiplər üzərində qurulur. Təhlükəsizlik, artıq müdafiə olunma səciyyəsindən hücum, "birgə inkişaf" və s. tipli prinsiplər əsasında transformasiya olunur.

Ənənəvi xarici iqtisadi fəaliyyətin geoiqtisadi yanaşma ilə əvəzlənməsi kifayət qədər mürəkkəb proses olmaqla bir sıra problemlərin sistemli olaraq aradan qaldırılmasını tələb edir. Bu mənada idarəetmə sferasında geoiqtisadi təfəkkürün formalaşması, geoiqtisadi yanaşmanın alternativsizliyinin bir,mənalı qəbul edilməsi, ölkənin geoiqtisadi strategiyasının nəzəri-konseptual və metodoloji platformasının hazırlanması və geoiqtisadi inkişaf modelinin formalaşdırılması xüsusi qeyd olunmalıdır.




**Şəkil 3. Ənənəvi XİF və geoiqtisadi yanaşmanın fərqli məzmunu.**

Mühüm məsələlərdən biri geoiqtisadi strategiyanın, eləcə də geoiqtisadi inkişaf modelinin nəzəri-konseptual və metodoloji müəyyənliyinin təsbitidir. Sübut etməyə lüzum yoxdur ki, sosio-iqitsadi tipin spesifik xüsusiyyətlərindən asılı olmayaraq, hər bir ölkə perspektiv inkişaf problemlərinə konkret strateji baxışın formalaşdırılması zərurəti ilə qarşılaşır. Geoiqtisadi yanaşmada ölkənin dünya iqtisadiyyatına "qovuşması" tamamilə fərqli məzmun daşıyır.

Apardığımız tədqiqat nəticəsində belə bir fikir formalaşır ki, geoiqtisadi "qovuşmada" ölkə "regionlaşır", "qloballaşır". Ekzogen mühit birmənalı olaraq "milliləşir". Yaxud, daxili və xarici kəsimdə həyata keçirilən iqtisadi fəaliyyətin tənzimlənmə prinsipləri və prosedur qaydaları "eyniləşir", idensifikasiya olunur.

Geoiqtisadi güc mərkəzinə (lokal, regional, qlobal) çevrilmə özözlüyündə kifayətedici deyildir və mütləq geosiyasi kontekstlə birlikdə götürülməlidir. Bu istiqamətdə aparılan tədqiqatların nəticələrini müqayisəli şəkildə tədqiq edərək geoiqtisadi və geosiyasi güc mərkəzinə çevrilmənin əsas konseptual istiqamətlərini müəyyənləşdirməyə cəhd etmişik ki, bunlara da əsasən aiddir: klassik ölkənin "ölkə-sistemə" transferi; "ökəsistemin" iqtisadi və siyasi suverenliyi; geoiqtisadi və geosiyasi güc mərkəzinin statusuna adekvat olan resursların səfərbərliyi sisteminin mövcudluğu; ölkə-sistemin həm daxili, həm də xarici kəsimdə məcmu fəaliyyətinin iqtisadisiyasi aspektdən müasir tələblərə cavab verən institusional təminatının yaradılması; ölkə-sistemin daxili sabitliyi və xarici təsirlərdən sığortalanmasını təmin edə biləcək sistemdaxili təkrar istehsal prosesinin yetərli səviyyədə olması; "ölkə-sistemin" müəyyən lokal sivilizasiyalardan birinə mənsubluğu.

Azərbaycanın xarici iqtisadi fəaliyyətinin geoiqtisadi yanaşma müstəvisinə keçməsi bütövlükdə prosesin institusional təminatına yenidən baxmağı tələb edir. Keçidlə yaranan mahiyyət fərqliliyinə və müasir dünyanın geoiqtisadi arxitekturasının spesifik xüsusiyyətlərinə adekvat şəkildə fəaliyyət sferasının institusionallaşdırılması əsasən aşağıdakı istiqamətləri özündə ehtiva edir:

1) Geoiqtisadi rəqabətin adekvat məzmun daşıyan institusional təminatı;
2) Geoiqtisadi məkanda effektiv və avtonom (dövlətə münasibətdə) fəaliyyət göstərə biləcək iri biznes strukturlarının, xüsusilə TMK-ların yaradılması;
3) Geoiqtisadi klasterlərin təşkili və inkişaf etdirilməsi;
4) Regional inteqrasiya bloklarına səmərəli qoşulmanın təşkili.

Aparılmasını məqsədəuyğun hesab etdiyimiz islahat istiqamətlərinin sıralanmasından göründüyü kimi, dəyişikliklər həm makro, həm

də mikro səviyyələri üzvi vəhdətdə əhatə etməklə, iki əsas hədəfə yetişmənin başlıca şərtləri kimi çıxış edir: 1) ölkənin-geoiqtisadi anlamda "ölkə-sistemə" çevrilməsi; 2) geoiqtisadi təkrar istehsal tsiklərində effektiv iştirakın təmin edilməsi.

Beləliklə, geoiqtisadi rəqabət mübarizəsində ölkə, yaxud "ölkə-sistemin" müəyyən uğur əldə etməsinin əsas şərtlərindən biri institusional təminatın müasir tələblərə uyğunluq dərəcəsindədir.

**5. Ölkənin geoiqtisadi inkişaf ssenarisi.**

Müasir geosiyasi şərait, regional və transregional səviyyələrdə formalaşmış münasibətlər sisteminin özəllikləri, eləcə də məcmu xarici iqtisadi fəaliyyətdə strateji baxışlardan tutmuş institusional təminata qədər yenilənməsi zəruri olan nüansları nəzərə aldıqda, görməmək mümkün deyildir ki, xarici iqtisadi strategiyanın geoiqtisadi strategiya ilə əvəzlənməsi birdəfəlik akt deyil, bütöv bir prosesdir və onun müəyyən zaman tələb edən keçid dövrünün olması qaçılmazdır.

Azərbaycanın geoiqtisadi inkişaf strategiyasının formalaşması və effektiv tətbiqinin əsas şərtlərindən biri metodoloji müəyyənliyin dəqiqləşdirilməsindən ibarətdir. Təbii ki, bu kifayət qədər mürəkkəb proses olmaqla yanaşı, hazırda bu istiqamətdə mütləq mənada nəzərə alınması zəruri olan bir sıra məsələlər mövcuddur:

– Qlobal səviyyədə geoiqtisadiyyatla bağlı vahid metodoloji baxışın yoxluğu;

– Geoiqdisadiyyatın müxtəlif istiqamətli (geosiyasət, geoekologiya, geoinformatika, sosial-mədəni və dini dəyərlər və s.) axınların mənbəyi kimi mövcüdluğunun metodoloji müəyyənliyin dəqiqləşdirilməsində xüsusi çətinlik doğurması;

– Geoiqtisadi faydanın zaman axını (indiki dövr $\rightarrow$ gələcək) üzərində ekvivalent bölgüsünün mümkün olmaması.

Göründüyü kimi, geoiqtisadi strategiya ilə bağlı metodoloji prinsiplərin seçimi universallıq anlayışından çox uzaqdır. Azərbaycanın geoiqtisadi strategiyasının metodoloji prinsipləri, bütün sadalanan problemlərlə yanaşı, dünya təcrübəsində də geniş yayıldığı kimi, ölkənin spesfik özəlliklərini nəzərə almaqla formalaşdırıla bilər. Belə ki, Azərbaycan üçün dövlət müstəqilliyi ən ali strateji məna daşıyır; Azərbaycan milli ideyasının iqtisadi interpretasiyası ölkə Prezidentinin formalaşdırdığı "Azərbaycan 2020: gələcəyə baxış" konsepsiyasında ətraflı şəkildə əks olunmuşdur; Azərbaycan – "kiçik" ölkədir. Düzdür, postindustrializmə keçidlə bağlı "kiçik" ölkə hipotezinin məzmunu da dəyişir. Amma, hələ ki, geoiqtisadi anlamda Azərbaycanın geoiqtisadi təkrar istehsal tsiklərində iştirakı yetərli deyildir; ölkə iqtisadiyyatının

monostrukturlaşma dərəcəsi, enerjidaşıyıcılarından asılılıq səviyyəsi, bir sıra istiqamətlərdə uğurlu gedişlərə baxmayaraq, hələ də qalmaqdadır; Azərbaycan Ermənistanla müharibə vəziyyətindədir.

Eyni zamanda, ölkənin geoiqtisadi fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edən nailiyyətləri də yetərincədir:

1) Azərbaycan regional liderdir. Cənubi Qafqaz regionun iqtisadi gücünün 75%-i Azərbaycanın payına düşür. Geoiqtisadi terminologiya ilə ifadə etsək, Azərbaycan geoiqtisadi qütbdür və müharibənin dayanması ilə, regional güc mərkəzinə çeviriləcəkdir; 2) Azərbaycanın həyata keçirdiyi geosiyasətin çoxvektorluğu, hansısa bir istiqamətdə siyasi lokallaşmanın yoxluğu, müxtəlif güc mərkəzlərinin regionda toqquşan mənafeləri arasında tarazlığın qorunub saxlanması və s. geoiqtisadi fəaliyyət baxımından kifayətedici dərəcədə əlverişli situasiya yaratmışdır; 3) ölkə son 10 il ərzində sıçrayışlı inkişaf yolu keçmişdir. Makrososial, makroiqtisadi və siyasi sabitlik bir proses halına gəlmiş, etibarlı sosial-iqtisadi sistem formalaşmışdır; 4) milli kapitalın transmilliləşməsi prosesi uğurla getməkdədir. Region üzrə qonşu ölkələri (Ermənistan istisna olmaqla) və Şərqi Avropanı əhatə edən transmilliləşmə prosesi daha çox real sektora istiqamətlənmişdir ki, bu da, yekun olaraq geoiqtisadi təkrar istehsal silsilələrinin təşkili ilə yekunlaşacaqdır; 5) Azərbaycan Avropanın enerji təhlükəsizliyi sferasında əsas aktyorlar sırasına daxil olmuşdur; 6) Azərbaycan bütövlükdə Avrasiya məkanı üçün nəqliyyat-kommunikasiya və rabitə qovşağına çevrilmiş, iqtisadi axınların (tranzit xarakterli) əsas ötrücülərindən biri kimi fəaliyyət göstərməkdədir. Şərq-Qərb süper informasiya kanalının fəaliyyətə başlaması ilə Azərbaycan güclü informasiya axını kanallarından biri keyfiyyətinə (Optik İpək Yolu) yiyələnəcəkdir.

Azərbaycanın geoiqtisadi inkişaf modelinə keçidi bir-biri ilə sıx bağlılıqda olan bir sıra vəzifələrin kompleks həllini tələb edir:

1) Dövlətin, geoiqtisadi mənada yeri və rolunun yeni məzmununun müəyyən edilməsi;

2) Təsərrüfat fəaliyyəti sərhədlərinin həm məkan-coğrafi, həm də funksional aspektdə genişlənməsi, geoiqtisadi təkrar istehsal tsikllərinə qoşulması, iqtisadi fəaliyyətin ağırlıq mərkəzinin geoiqtisadi məkana keçrililməsi;

3) Müxtəlif geoiqtisadi məkanların seçilməsində mənafelər balansının nəzərə alınması ilə yanaşı, perspektiv artım imkanlarının əsas götrülməsi;

4) Geoiqtisadi spesifikanı nəzərə almaqla əmtəə və fond birjalarının fəaliyyətində əsaslı dönüşə nail olunması ilə yanaşı, sistemin etibarlılıq dərəcəsinin qorunub saxlanması;




**Şəkil 4. "Texnoloji piramida" modeli əsasında Azərbaycanın geoiqtisadi inkişaf ssenarisi**

5) Kapitalın transmilliləşməsinin innovativ sferanın prioritetliyi əsasında həyata keçirilməsi, innovativ "nişa"nın müəyyənləşdirilməsi;

6) Ölkənin nəqliyyat-rabitə xəttlərinin, ticarət yollarının və informasiya axını kanallarının transregional-qlobal transregional - qlobal birinə çevrilməsi yönümündə beynəlxalq əhəmiyyətli infrastruktur layihələrin həyata keçrilməsi;

7) İkitərəfli və çoxtərəfli əlaqələr sisteminin paralel şəkildə inkişafı, xarici aləmə münasibətdə çoxvariantlılığın və şaxələndirmənin dəstəklənməsinin davam etdirilməsi.

Hal-hazırda geoiqtisadi yanaşma çərçivəsində müxtəlif səpgili ssenarilərin hazırlanması geniş vüsət almaqdadır. Bu istiqamətdə nəzəri araşdırmalara və dünya ölkələrinin təcrübəsinə əsaslanaraq onları aşağıdakı 2 qrupa ayırmaq olar:

1) Rəqabətqabiliyyətliliyin texnogen modelinin formalaşdırılması. Yəni, bütün mahiyyəti ilə postindustrial cəmiyyət tipinə xas olan dəyərlər sisteminin tətbiqi, iqtisadiyyatda texnoloji "hökmranlığın" qərarlaşması, mental dəyərlərin də kardinal dəyişikliyinə səbəb olur;

2) Rəqabətqabiliyyətliliyin təkamül modelinin tətbiqi. Problemi birdəfəlik həll etməyə imkan verən texnogen modeldən fərqli olaraq, bu yanaşma fəaliyyət istiqamətlərinin yetərincə genişliyi, islahatların ardıcıllığı və davamlılığı, mərhələli keçidin keyfiyyət fərqliliyi və. s. elementlər nöqteyi-nəzərdən "universal" xarakter daşıyır.

Dissertasiya işində təsvir etdiyimiz geoiqtisadi inkişaf ssenarilərinin müqayisəsində bir sıra digər məzmunlu qənaətlərə də gəlmək olar. Belə ki, bazarda baş verən sosial-iqtisadi dəyişiklik əslində, fərqli beynəlxalq bazarların yaranması deməkdir. Belə ki, "texnoloji piramida"nın (şəkil 4.) aşağı səviyyəsində olan regionlar "alıcı" bazarında, yuxarı mərtəbəsində olanlar isə "satıcı" bazarında fəaliyyət göstərməkdədirlər. Əsas parametrlər baxımından fərqli məzmun daşıyan bazarların "toqquşması" dünyanın geoiqtisadi mənzərəsində müxtəlif tutumlu təlatümlər yarada bilər.

Bu baxımdan, apardığımız tədqiqatdan belə nəticəyə gəlmək olar ki, Azərbaycanın geoiqtisadi inkişafının hər iki ssenarisi milli iqtisadiyyat $\rightarrow$ geoiqtisadi məkan bağlılığında birincinin yəni, milli iqtisadiyyatın resurs potensialının (sözün geniş mənasında) artımına və inkişaf dinamikasına istinadla prosesin təşkili və gedişi mərhələlərini özündə ehtiva edir. Eyni zamanda o da aydın olur ki, "texnoloji piramida"nın əsas kimi götürülməsi innovativ fəaliyyətin zəruriliyini ön plana çıxarır. Ona görə ki, "yeni iqtisadiyyat" quruculuğunun əsasında məhz, innovasiya prosesləri, insan kapitalı və yüksək texnologiyalar dayanır.

**Dissertasiya mövzusu üzrə müəllifin aşağıdakı işləri çap dilmişdir:**

1.Ç.Ş.Hacıyeva. Geoiqtisadi rəqabət mexanizminə konseptual baxış. Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Maliyyə və Uçot jurnalı. Bakı. № 5 -2014.

2.Ç.Ş.Hacıyeva. Geoiqtisadi yanaşma: nəzəri baxışların müqaisəli təhlili. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri. Bakı. № 2 -2014.

3.Ç.Ş.Hacıyeva. Geoiqtisadi yanaşmanın sərhəd müəyyənliyi problemləri. Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji xəbərləri. Bakı. № 39 -2014.

4.Ç.Ş.Hacıyeva. Geoiqtisadiyyatın tarixi təkamül prosesinə müasir baxış. Azərbaycan Kooperasiya Universiteti "Kooperasiya" elmi-praktiki jurnalı. Bakı. № 2 (33), 2014.

5.Ç.Ş.Hacıyeva. Dünya gəlirinin formalaşması mənbələri: tarixi təkamül və müasir dövr. Əmək və Sosial Problemlər üzrə Elmi-tədqiqat və Tədris Mərkəzi Əmək və Sosial Problemlər elmi əsərlər toplusu. Bakı. № 1 (14), 2014.

6.Ch.Sh.Hajiyeva. Trends of the institutional provision of geoeconomic activity. Вестник Национальной академии государственного управления при Президенте Украины. Киев. № 4 – 2014.

7.Ç.Ş.Hacıyeva. Qlobal iqtisadiyyatın struktur səviyyələri. Azərbaycanın Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu Elmi Əsərlər. Bakı. № 3 – 2014.

8.Ç.Ş.Hacıyeva. Geoiqtisadi məkan: konseptual məzmunu və spesifikasiyası. Maliyyə və Uçot jurnalı. Bakı. № 11 – 2014.

9.Гаджиева Ч.Ш.. Переход на траекторию геоэкономического развития: теоретико-методологические основы. V Международная научно практическая конференция «Глобальный мир: многополярность, антикризисные императивы, институты». Ростов-на-Дону. 22-24 май, 2014 год.

10.Гаджиева Ч.Ш.. Сценарии геоэкономического развития Азербайджанской Республики. Аспекти публічного управління (ДРІДУ НАДУ), Киев. № 9 – 2014

11.Ç.Ş.Hacıyeva. Geoiqtisadiyyat: mahiyyət çararları və konseptual qiymətləndirmə. Azərbaycan ETKTİTİ elmi əsərlər. Bakı. № 1 – 2014

12.Гаджиева Ч.Ш.. Геоэкономика и перспективы развития экономики Азербайджана. Международный научный журнал «Экономика и предпринимательство». Москва, № 11, 2014.

**Чешми Шамседдин гызы Гаджиева**

**Проблемы формирования модели геоэкономического развития Азербайджана**

## РЕЗЮМЕ

В диссертационной работе впервые системно исследованы теоретико-методологические и концептуальные основы современной геоэкономики и проблемы формирования геоэкономической стратегии Азербайджана. В условиях всеобщей глобализации границы между странами становятся более прозрачными и уязвимыми для проникновения глобальных угроз и вызовов на территории отдельных стран. В этой связи обеспечение более выгодного положения в глобальном экономическом пространстве и получение определенной доли мирового дохода с целью повышения благосостояния и экономического прогресса делает необходимым максимальное пользование преимуществами геоэкономических подходов и механизмов.

Основной целью данного исследования является разрабока теоретико-методологических и практических основ и механизмов реализации геоэкономической модели развития Азербайджана с учетом современных процессов происходящий в глобальной экономике и в системе мирового хозяйства. Важное место в работе занимает определение эффективных границ локализации пространства на трансрегиональном уровне и разработка сценариев перехода от геополитики к геоэконическому модели развития.

Ссылаясь на концептуальное обобщение имеющихся теоретических взглядов связанных с разработкой геоэкономической стратегии и основываясь на противоречивость выявленных методологических различий, с научной точки зрения, а также изучая опыт отдельных регионов и стран была доказана национальная принадлежность, факторы и механизмы геоэкономического подхода. Впервые был составлен геоэкономический атлас Азербайджана и системная интерпретация его основных параметров.

На основе эконометрического анализа создана интерпретативная модель содержащяя качественные аспекты взаимних экономических отношений и определены еффективные границы геоэкономической пространственной локализации страны.Также разработана и подготовлена концептуально-теоретическая конс-

трукция перехода к геоэкономическому подходу, в связи с приминением эффективной геоэкономической деятельности. В работе выявлены и показаны пути решения проблем институцианалного обеспечения, раскрыто теоретическое и концептуальное содержание модели геоэкономического развития, осуществлена оценка механизмов его реализации с эмпирической точки зрения. В результате комплексного исследования были разработаны и предоставлены сценарии геоэкономического развития страны, определены основные направления качественного обновления сферы обеспечения общенациональных интересов, представлены конкретные предложения и рекомендации по совершенствованию внешне экономической деятельности Азербайджана в геоэкономическом пространстве.

**Cheshmi Shamseddin gizi Hajiyeva**

**Geoeconomic development model of Azerbaijan and its formation problems**

## SUMMARY

For the first time in Azerbaijan, the geo-economical subject matter was studied in a systematic way. The transparence of borders between countries, the fact that the global threats and challenges can easily influence the internal affairs of a country, as well as the importance of taking a well-deserved place in the global economic space and realization of the wish to own a certain share of the world income shows up the inevitability of the application of a geoeconomic approach.

The main objective of the paper consists of the development of theoretical-methodological and conceptual bases of the model of a geo-economic development of Azerbaijan based on the current reality, identification of the effective borders of place localization on a trans-regional level, and the drawing up development scenarios of the situation of transition to the geo-economic approach.

In the study, the existing theoretical views which are connected with the problem have been identified with a reference to the conceptual generalization, and the contradictory essence of the discovered methodological differences, the fact that geoeconomic approach has a national content has been substantiated from a scientific point of view, for the first time, a geoeconomical atlas of Azerbaijan has been drawn up and its main parameters have been systematically interpreted, has been drawn up an interpretative model which confirms the qualitative aspects of mutual economic relations of the country on the basis of an economic analysis, effective boundaries of the geo-economical place localization of the country have been specified.

At the same time, a conceptual-theoretical structure of the situation of the transition to the geoeconomical approach has been developed, the ways of solving the problems of institutional security connected with the carrying out of an effective geoeconomic activity have been shown, the theoretical-methodological and conceptual content of the model of a geo-economic development of the country has been disclosed, the mechanism of the realization of its transition onto a pragmatic plane has been assessed from the empiric point of view. As a

conclusion of the study, the scenarios of geoeconomic development of the country have been developed, the main directions of the qualitative reformation in the sphere of security of national interests have been shown, and the relevant recommendations have been proposed.

Kağız  formatı 60x84   1/16.
Həcmi 1,5 ç.v. Sayı 100.
------------------------------------------
“İqtisad Universiteti” nəşriyyatı
AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ГАДЖИЕВА ЧЕШМИ ШАМСЕДДИН КЫЗЫ**

# ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ МОДЕЛИ ГЕОЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНА

**Специальность: 5310.01 – Мировая экономика**

## АВТОРЕФЕРАТ

Диссертации по присуждению научной степени доктора философии по экономики

**БАКУ - 2014**